ŞƏFFAFLIQ AZƏRBAYCAN

# "ŞƏFFAFLIQ AZƏRBAYCAN" KORRUPSİYAYA QARŞI MÜBARİZƏ İCTİMAİ BİRLİYİ

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

**OKTYABR-DEKABR 2008-Cİ İL ƏRZİNDƏ GÖRÜLƏN İŞLƏR BARƏDƏ**

## MƏTBUAT ÜÇÜN HESABAT

1. **TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT**
2. **MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT**
3. **DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ**
4. **MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI**
5. **UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR**

### 1. TƏŞKİLAT VƏ LAYİHƏ HAQQINDA QISA MƏLUMAT

1993-cü ildə təsis olunan "Transparency International" (Beynəlxalq Şəffaflıq) təşkilatı beynəlxalq qeyri-hökümət təşkilatıdır və dünyada aparıcı antikorrupsiya hərəkatıdır. Beynəlxalq Şəffaflıq təşkilatının katibliyi Berlin şəhərində təsis olunub və milli bölmələrin köməyi ilə 90-dan çox ölkədə antikorrupsiya fəaliyyətlərini əlaqələndirir. Bölmələr müstəqil yerli QHT-rı olaraq öz siyasətlərini azad seçirlər və fəaliyyətlərini davam etdirmək üçün fondlarını artırırlar. "Şəffaflıq Azərbaycan" İctimai Birliyi 2000-ci ilin Oktyabr ayında vətəndaş cəmiyyəti və elmi nümayəndələr tərəfindən təsis olunmuşdur. 2001-ci ildə "Şəffaflıq Azərbaycan" təşkilatına milli bölmə statusu verilmişdir.

2005-ci il Aprel ayının 1-dən etibarən "Şəffaflıq Azərbaycan" İB, MDB ölkələri arasında ilk dəfə olaraq yeni "ALAC" (İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri) layihəsini həyata keçirir. Layihə ilk əvvəl Bakı və Gəncə olmaqla 2 mərkəz vasitəsi ilə fəaliyyət göstərirdisə, bu gün artıq 5 mərkəz (Quba, Lənkəran, Şəki) vətəndaşlara müxtəlif pulsuz xidmətlər göstərir. Bakı ofisi 2005-ci il iyul ayının 1-dən, 1 Avqust 2005-ci il tarixdən Gəncə

mərkəzi, Lənkəran mərkəzi 1 İyul 2006-cı il tarixdən və Quba mərkəzi 1 Avqust 2006-cı il tarixdən, Şəki mərkəzi isə 1 Fevral 2007 ci il tarixdən tam fəaliyyət göstərir.

Hər bir şəxs aşağıdakı telefonlar vasitəsilə mərkəzlərə müraciət edə və pulsuz hüquqi yardım ala bilər.

- **Qaynar xətt Bakı 088 707 07 07 və yaxud (12) 497 68 15**
- **Qaynar xətt Gəncə 088 202 02 02 və yaxud (22) 56 55 97**
- **Qaynar xətt Lənkəran 088 303 03 03 və yaxud (171) 5 17 25**
- **Qaynar xətt Quba 088 404 04 04 və yaxud (169) 5 14 91**
- **Qaynar Xətt Şəki 088 505 05 05 və yaxud (177) 4 26 55**

Layihə, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD təşkilatı), eləcə də ATƏT-in Bakı ofisinin qrant dəstəyi əsasında həyata keçirilir. Bu layihə bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa İttifaqına üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

Layihənin məqsədi vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir.

Layihənin başlıca missiyası isə vətəndaşlara korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi-nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurlarına əsaslanır. Lakin layihə, vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

**Layihə beş istiqamətdə həyata keçirilir:**

- **Hüquqi məsləhət**
- **Maariflənmə və məlumatlandırma**
- **İctimai maraqların müdafiəsi**
- **Dövlət orqanlarının institusional inkişafına yardım**
- **Mobil treninq və seminar**

**Hüquqi məsləhət:** Hüquqi məsləhət vətəndaşlara öz hüquqlarının bərpası və qorunması üçün effektli hüquqi mexanizmlərin istifadə edilməsi və dövlət orqanlarına müraciətlərin hazırlanmasına dair məsləhətlərin verilməsi istiqamətində keçirilən fəaliyyətdir.

**Maariflənmə və məlumatlandırma:** Bu fəaliyyət növü vətəndaşların və ictimaiyyətin antikorrupsiya sahəsində maariflənməsini nəzərdə tutur.

**İctimai maraqların müdafiəsi:** Bu fəaliyyət verilən hüquqi məsləhətlərin və maariflənmənin əsasında dövlətin müvafiq siyasətini, institusional təcrübəsini, qanunvericiliyin və pozuntulara görə məsuliyyəti təkmilləşdirmək məqsədilə həyata keçirilir.

**Dövlət orqanlarının institusional inkişafına yardım:** Bu fəaliyyət nəticəsində bir neçə dövlət orqanlarının qaynar xətlərinin, korrupsiyaya mübarizə üzrə ixtisaslaşmış işçi qruplarının və s. yaradılmasına və fəaliyyət göstərmələrinə köməklik göstərilməsi nəzərdə tutulur.

**Mobil treninq və seminarlar:** Bu fəaliyyət ərzində mərkəz hüquqşünasları könüllülərin köməyi ilə müxtəlif hədəf qrupları (əsasən kənd əhalisi ilə) üçün görüş keçirir, mobil antikorrupsiya təlimlərini keçirir və yerlərdə pulsuz hüquqi yardım göstərirlər.

2006-cı ilin May ayında yaradılmış Şəffaflıq Azərbaycan təşkilatının və "ALAC" layihəsinin İnternet səhifələri birləşdirilərək bir səhifədə - www.transparency.az – cəmləşdirilib və vaxtaşırı məlumatlarla yenilənir.

## 2. MƏRKƏZLƏRİN FƏALİYYƏTİ HAQQINDA MƏLUMAT

- *Seminar və Tədbirlər*

**Layihənin işçi heyəti hesabat dövrü ərzində müxtəlif təşkilatlar tərəfindən təşkil olunan və həmçinin özlərinin təşkil etdiyi seminar, dəyirmi masa və konfranslarda iştirak etmiş və həmçinin yerləşdikləri ərazi üzrə yaşayan əhaliyə korrupsiya ilə bağlı mübarizə üzrə maarifləndirmə məqsədi ilə seminarlar təşkil ediblər.**

Aşağıda ayrı-ayrı mərkəzlərdə keçirilən tədbirlər haqqında qısa məlumat verilib:[1]

Layihənin Bakı mərkəzin əməkdaşları Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutun orta məktəblərin müəllim heyəti üçün 6 seminar keçirmişdilər. Ümumiyyətlə, rüb ərzində keçirilən bu seminarlarda iştirak etmiş 100 yuxarı müəllim heyətinə "Şəffaflıq Azərbaycan" İB və "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" ("ALAC") layihəsinin xidmətləri barəsində məlumat verilmişdir. Həmçinin, korrupsiyaya qarşı mübarizədə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" çərçivəsində Dövlət tərəfindən edilən səylər, və Dövlətin QHT-lərlə əməkdaşlığı müzakirə olunmuşdur.



**Yuxarıda şəkildə:** Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda keçirilən seminar

[1] ***Hesabatda yalnız hər mərkəz üzrə bir seminar işıqlandırılıb. Mərkəzlərin keçirdiyi digər seminarlar haqqında əlavə məlumat almaq üçün Layihənin İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis Samir Əlibəyov ilə 418-11-09 nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.***

Layihənin Quba mərkəzi Quba rayon Dövlət Sosial Müdafiə Fondun əməkdaşları üçün seminar keçirmişdir. Görüş zamanı iştirakçılara korrupsiya, onun formaları və səbəbləri, və onun azaldılması üçün "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" çərçivəsində görülən tədbirlər haqqında məlumat verilmişdir, və yaranmış suallara cavablarla əlaqədar hüquqi məsləhətlər verilmişdir.



**Yuxarıda şəkildə:** Quba rayon Dövlət Sosial Müdafiə Fondun əməkdaşları üçün seminar

Layihənin Şəki Mərkəzi rayon Tibb Kollecin 100-dən artıq əməkdaşları və tələbələri üçün seminar keçirmişdir. Seminar zamanı iştirakçılara "Transparency International" təşkilatı və onun yerli bölməsi sayılan "Şəffaflıq Azərbaycan" İB-nin fəaliyyət istiqamətləri və İB-in həyata keçirdiyi "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırılıb.



**Yuxarıda şəkildə:** Şəki Tibb Kollecin əməkdaşları və tələbələri üçün seminar

## 3. <u>DÖVLƏT ORQANLARI VƏ QHT-LƏR İLƏ ƏMƏKDAŞLIQ</u>

Layihənin Bakı mərkəzi hesabat dövrü ərzində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən keçirilən işə qəbul ilə bağlı keçirilən imtahanlarda müşahidəçi qismində çıxış etmişlər. Oktyabr ayında keçirilmiş Prezident seçkiləri zamanı layihənin Bakı, Gəncə, Quba, Şəki və Lənkəran mərkəzlərinin əməkdaşları Azərbaycanda prezident seçkilərini müşahidə etmiş ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun seçki-müşahidə missiyasında müşahidəçi qismində iştirak etmişdir.



**Yuxarıda şəkildə:** Seçki-müşahidə missiyası Layihənin Bakı Mərkəzinin əməkdaşı ilə müşahidəçi qismində

Hesabat dövrü ərzində Təşkilatın Bakı, Gəncə, Lənkəran, Quba və Şəki mərkəzləri beynəlxalq və yerli QHT-lər və Dövlət Strukturları tərəfindən təşkil olunmuş bir sıra tədbirlərdə iştirak etmişlər və bir sıra təşkilatlarda görüşlər keçirmişlər. Bunlardan Beynəlxalq Qırmızı Xaç Komitəsi, Konstitusiya Araşdırmalar Fondu, Dalğa Gənclər Hərəkatı, Bakı Təhsil İnformasiya Mərkəzi, Korrupsiyaya qarşı mübarizə aparan Qeyri Hökumət Təşkilatlarının Məlumat və Əməkdaşlıq Şəbəkəsi, USAİD, Xarici İşlər Nazirliyi, Tacirlər və İstehlakçılar Birliyi, Milli Büdcə Qrupu, Avrasiya Əməkdaşlıq Fondu, Sülh və Demokratiya İnstitutu, Azadlıq radiosu, DAİ Parlament Layihəsi, ATƏT, Azərbaycan Marketinq Cəmiyyəti, ABA CEELI, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurası, QİÇS Mərkəzi, Seçki Monitorinq Mərkəzi, İqtisadi Təhqiqatlar Mərkəzinin, Ombudsman və sairləri göstərmək olar.

"Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin İcraçı Direktoru Rəna Səfərəliyeva Afinada korrupsiyaya qarşı mübarizə mövzusunda 13-cü beynəlxalq konfransda iştirak etmişdir. Konfransda cəmiyyətin korrupsiyaya qarşı mübarizəyə səfərbər olunmasında QHT-lərin rolu, bu problemlə mübarizə sahəsində QHT-lərlə dövlət strukturları arasında səylərin əlaqələndirilməsi, ictimai təşkilatların əməkdaşlının inkişaf etdirilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə məsələləri müzakirə olunmuşdur.

Layihənin Bakı Mərkəzinin İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis Samir Əlibəyov Almaniyanın Berlin şəhərində keçirilmiş "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" -"ALAC layihəsinin üzrə məlumatlar bazasının idarə edilməsi" mövzusunda keçirilmiş seminarda iştirak etmişdir. Bir sıra ölkələrdən iştirak etmiş əməkdaşlarla yanaşı olaraq layihə üzrə təqdimat etmişdir.



**Yuxarıda şəkildə:** Berlində keçirilmiş görüş zamanı

“Transparency International” beynəlxalq təşkilatının Azərbaycan bölməsi olan “Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin mərkəzləri həyata keçirdiyi “İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri” Layihəsi, habelə “Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya”nın maarifləndirmə komponenti çərçivəsində təlimlər keçiriblər. Belə ki, hesabat dövrü ərzində layihənin **Bakı mərkəzi** - Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutun orta məktəblərin müəllim heyəti, **Quba mərkəzi** - Quba rayonun Susay, Qərəy, Uzunmeşə, Ərməki, Alıc, Alıc Digah kəndlərin və Xaçmaz rayonun Ləcət kəndin sakinləri, Quba Sosial Müdafiə Fondu, Quba Mərkəzi Poçt Ofisi, Quba Dövlət Sosial İqtisad Kolleci, Quba Sənaye Pedaqoji Texnikumu, Azərbaycan Respublikası Müəllimlər İnstitutunun Quba filialı, Azərbaycan Dövlət Pedaqoji Kollecinin Qusar filialın müəllim heyəti və Veteranlar Şurasının Qusar rayonun əməkdaşları üçün, **Şəki mərkəzi** - Şəki rayonun Çeşməli, Öryət, Böyük Dəhnə, Kiçik Dəhnə, Əliyar, Aydınbulaq, Aşağı Daşaqıl, Şirinbulaq, Baş Zeyid, Vərəzət və Turan kəndlərinin sakinləri, Şəki Şəhər Musiqi Texnikumu, Şəki Şəhər Tibb texnikumu və Şəki Şəhər 11 saylı orta məktəb müəllim heyəti üçün seminarlar keçirmişdir.

Mobil seminar xarakteri daşıyan təlimlər zamanı, vətəndaşların nəzərinə korrupsiyanın anlayışı, onun səbəbləri, nəticələri və formaları haqqında, habelə, “Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın” icrası üzrə tədbirlər planı, təşkilatının fəaliyyət istiqamətləri və həyata keçirdiyi “İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri” Layihəsinin fəaliyyəti və xidmətləri ilə bağlı məlumatlar çatdırıblar və şikayəti olan vətəndaşlara yerində pulsuz hüquqi yardım göstəriblər.

Mindən yuxarı iştirakçıları əhatə etmiş seminarlar zamanı şikayət olunan sahələr arasında əsasən Bələdiyyələr, İcra Hakimiyyətləri, Dövlət Xəritəçəkmə Komitəsi, Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti, Azerenerji, Azəriqaz, Sosial Müdafiə Fondu, Məhkəmələr, Polis, Hərbi Komissarlıq, Təhsil və sair sahələr də vardır.

Layihə, yerli QHT-lər ilə sıx qarşılıqlı əməkdaşlıq edirlər. Bir çox hallarda təşkilat yerli QHT-lərə müraciət edərək birgə tədbirlərin keçirilməsi təklifi ilə çıxış edir. Bəzi hallarda isə müxtəlif QHT-lər təşkilatın yerli ofislərindən müəyyən tədbirlərin keçirilməsi üçün istifadə edirlər.

“Şəffaflıq Azərbaycan” təşkilatı Azərbaycan Respublikasının 5 regionunda 9 dekabr – ümumdünya korrupsiya qarşı mübarizə gününə həsr olunmuş “Korrupsiyaya YOX de!” şüarı altında “Milli Antikorrupsiya Həftələri” (MAH) Kampaniyasını. yerli KİV, QHT və könüllülərin cəlb olunması ilə həyata keçirmişdir.

Bu kampaniya aşağıdakı göstərilən fəaliyyətlərdən ibarət idi:

1. ***Geniş İctimaiyyətin Məlumatlılığın Artırılması***
2. ***İctimaiyyətin Maarifləndirilməsi: hədəf qrupları – Müəllimlər və Tələbələr***
3. ***Yekun press konfrans və “Korrupsiya ilə üz-üzə” Karikaturalar Kitabçasının təqdimatı***

✓ ***Geniş İctimaiyyətin Məlumatlılığın Artırılması* –** Bu fəaliyyət növü ALAC layihəsi barəsində və Dövlətin və vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizədə səyləri haqqında bir sıra məlumatlandırma aksiyalarından ibarət idi:

- qapıdan-qapıya - ALAC mərkəzlərinin xidmətləri barəsində vətəndaşların məlumatlandırması;

- ictimai yerlərdə fərdi görüşlər;
- avtobus dayanacaqlarında və digər ictimai yerlərdə posterlərin yapışdırılması;
- AR antikorrupsiya qanunvericiliyindən çıxarışlardan ibarət olan məlumat vərəqələrin ictimai yerlərdə paylanması;
- lazım gəldikdə, yerindəcə hüquqi məsləhətlərin verilməsi.

✓ ***İctimaiyyətin Maarifləndirilməsi: hədəf qrupları – Müəllimlər və Tələbələr*** **–** Bu fəaliyyət növü çərçivəsində ALAC mərkəzlərinin əməkdaşları və könüllüləri bir sıra tədris müəssisələrində 1,149 nəfər üçün 16 seminar keçiriblər. Dinləyicilərə Strategiya və Antikorrupsiya qanunvericiliyin çıxarışlarından ibarət məlumat vərəqələri paylanmışdır. Bundan əlavə, Dövlətin QHT-lərlə əməkdaşlığın nümunəvi göstəricisi olan "Şəffaflıq Azərbaycan" İB və AR Təhsil Nazirliyinin antikorrupsiya qaynar xətlərin telefon nömrələrini üzərində əks etdirən flayer-təqvimlər paylanılmışdır. Bu əməkdaşlıq təcrübəsi artıq ikinci ildir ki, ali təhsil müəssisələrində imtahanlar qabağı həyata keçirilir.






**Yuxarıda şəkildə:** Flayer-təqvimlər

Seminarlar Təhsil Nazirliyi və Təhsil Müəssisələrinin rəhbərlərinin dəstəyi və köməyi ilə "Şəffaflığın artırılması və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"-nın maarifləndirmə komponenti çərçivəsində həyata keçirilmişdir.

Kampaniya müddəti ərzində (22 noyabr – 11 dekabr) ölkənin 5 regionunda birbaşa 2700-dən artıq, dolayısı 9000-dək vətəndaş məlumatlandırılmışdır.

✓ ***Yekun press konfrans və "Korrupsiya ilə üz-üzə" Karikaturalar Kitabçasının təqdimatı***

"Korrupsiya ilə üz-üzə" karikaturalar kitabçası "Qaradağ Sement" ASC-nin maliyyə dəstəyi ilə nəşr olunmuşdur və bu gün, 11 dekabr, "Milli Antikorrupsiya Həftələri" kampaniyasının son günündə, geniş ictimaiyyətə təqdim olunur.





**Yuxarıda şəkildə:** "Korrupsiya ilə üz-üzə" karikaturalar kitabçası və onun təqdimat mərasimi

## 4. MÜRACİƏTLƏRİN ÜMUMİ STATİSTİKASI

Layihə, qeyd olunan hesabat dövrü ərzində 5 mərkəz daxil olmaqla 1,575 ilkin zəng və şikayət qəbul edib: Bakı (217), Gəncə (465), Lənkəran (271), Quba (344) və Şəki (278).

*Aşağıda göstərilən diaqram hər beş mərkəz üzrə qəbul olunan şikayətlərin rəqəmlə ifadə olunması göstərilir.*




## Şikayətçilərin cinsi

Şikayətçilərin cinsi nisbəti ilə götürsək, kişilər qadınlara nisbətən daha çox şikayət ilə mərkəzlərə müraciət edirlər. Bu hal özünü daha çox kənd yerlərində büruzə verir. Buna əsas verən amillərdən biri isə görüşlərin çay evi və ya ofis daxilində keçirilməsidir. Bakı və Şəkidə şəhərlərində qadınların iştirak faizi daha yüksəkdir. Bununla belə, Quba və Lənkəranda məktəblərdə təşkil olunan tədbirlərdə də qadınların çoxluq təşkil etmələri müşahidə olunurdu.

*Aşağıda göstərilən diaqramda hər beş mərkəzə hesabat dövrü ərzində, habelə Layihənin həyata keçirilmə dövründən bəri müraciət edən şikayətçilərin cinsi nisbətini göstərilib:*

| Şikayətçilərin cinsi | | Bakı XV rüb | Gəncə XV rüb | Lənkəran XV rüb | Quba XV rüb | Şəki XV rüb |
|---|---|---|---|---|---|---|
| A | Kişi | 145 | 324 | 213 | 237 | 174 |
| B | Qadın | 72 | 141 | 58 | 107 | 104 |
| C | **Şikayətlərin ümumi sayı** | 217 | 465 | 271 | 344 | 278 |

**Şikayətçilərin yaşı**

Hər yerdə olduğu kimi, ən aktiv yaş qrupu orta yaşlı əhali hesab edilir. Bununla belə, digər qrupların xüsusi cəhdləri nəticəsində cavan nəsil də yaxşı təmsil olunma imkanından bəhrələnir.

| Yaş qrupu | | Bakı XV rüb | Gəncə XV rüb | Lənkəran XV rüb | Quba XV rüb | Şəki XV rüb |
|---|---|---|---|---|---|---|
| A | < 20 | 7 | 1 | 4 | 77 | 0 |
| B | 20 – 35 | 51 | 18 | 36 | 40 | 45 |
| C | 35 – 50 | 94 | 74 | 167 | 86 | 101 |
| D | 50 – 65 | 27 | 261 | 31 | 80 | 58 |
| E | 65 + | 11 | 111 | 2 | 58 | 32 |
| F | Müəyyən deyil | 27 | 0 | 31 | 3 | 42 |
| **G** | **Ümumi say** | 217 | 465 | 271 | 344 | 278 |

**Şikayətçilərin coğrafi yerləşməsi**

Layihənin ilkin həyata keçirilmə mərhələlərində hüquqi yardım əsasən şəhər əhalisinə edilirdisə, son rüb dövründə regional mərkəzlər kənd yerlərində mobil təlimlər keçirmək yolu ilə daha çox kənd əhalisinin ehtiyacları ilə məşğul olublar.

**Şikayətlər ilkin olaraq necə qəbul olunur**

Vətəndaşların telefon vasitəsilə əvvəlcədən görüş təyin etməkdən çox sadəcə gəlməyə üstünlük vermək tendensiyası azalmaqdadır. Telefon zəngi və Layihə ofisinə gəlmə ən geniş yayılmış metoddur. Bir çox hallarda regional mərkəz əməkdaşları özləri ayrı-ayrı kəndlərə səfər edir və mövcud olan problemlərlə yerində tanış olurlar.

**Şikayətlərin ünvanlandığı sahələr**

Hər bir mərkəzdə eyni olaraq, məhkəmə sistemi şikayətlərin ən çox ünvanlandığı sahədir. Digər sahələrə isə təhsil, polis, icra orqanları, pensiya və ünvanlı sosial yardım, əmək

mübahisəsi, bələdiyyə, prokurorluq, və kommunal xidmətlərdirlər. Keçən rüblə müqayisədə səhiyyə ilə bağlı şikayətlərin sayı azalıb.

**Şikayətlərin sahələr üzrə bölgüsü – 15 rüb (ümumi sayı – 1,575)**




| Sahələr üzrə | | Bakı XV rüb | Gəncə XV rüb | Lənkəran XV rüb | Quba XV rüb | Şəki XV rüb |
|---|---|---|---|---|---|---|
| A | Məhkəmə | 36 | 127 | 9 | 101 | 23 |
| B | Səhiyyə | 3 | 7 | 5 | 1 | 5 |
| C | Təhsil | 2 | 3 | 26 | 20 | 4 |
| D | Gömrük | 0 | 0 | 0 | 1 | 0 |
| E | Vergi/Maliyyə | 0 | 1 | 1 | 2 | 3 |
| F | Polis | 20 | 106 | 12 | 11 | 25 |
| G | Lizensiyalar (tikinti və s.) | 0 | 0 | 0 | 0 | 0 |
| H | Alqi-satqı | 0 | 4 | 0 | 1 | 2 |
| I | Özəlləşdirmə | 2 | 0 | 0 | 4 | 3 |
| K | Inspeksiya | 0 | 0 | 0 | 0 | 0 |
| L | İcra orqanları | 9 | 19 | 3 | 16 | 10 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| M | Pensiya və ünvanlı sosial yardım | 31 | 51 | 18 | 30 | 26 |
| N | Əmək mübahisəsi | 1 | 4 | 1 | 5 | 15 |
| O | Bələdiyyə | 0 | 46 | 19 | 42 | 10 |
| P | Prokurorluq | 14 | 79 | 2 | 3 | 3 |
| Q | Özəl sektor | 11 | 0 | 14 | 16 | 4 |
| R | Hərbi Kommisarlıq | 1 | 0 | 2 | 0 | 4 |
| S | Kommunal xidmətlər | 38 | 18 | 159 | 53 | 120 |
| T | Müəyyən deyil | 49 | 0 | 0 | 38 | 21 |
| U | Müxtəlif sahələr üzrə ünvanlanan şikayətlərin ümumi sayı | 217 | 465 | 271 | 344 | 278 |

**Şikayətlərin sahələr üzrə bölgüsü - layihə boyu (ümumi sayı – 17,163)**



## 5. UĞURLA HƏLL EDİLMİŞ BƏZİ MÜRACİƏTLƏR[2]

### Bakı mərkəzi üzrə

**Nikah qeydə alındı –** Vətəndaş şikayət edirdi ki, xarici ölkədən olan vətəndaş ilə nikah qeydə alınmır. Təşkilatın müraciətindən sonra nikah qeydə alındı.

**Nəqliyyat vasitəsi qeydiyyata alındı –** Vətəndaş nəqliyyat vasitəsinin qeydiyyata alınmadığından şikayətlənirdi. Daxil olunmuş məktuba əsasən vətəndaşın nəqliyyat vasitəsi qeydiyyata alındı.

**Pensiya yenidən hesablandı –** Vətəndaşın şikayəti onun üçün müharibə əlili kimi pensiyasının hesablanmamasından idi. Təşkilatın müraciətindən sonra yeni pensiya hesablandı və müvafiq sənədlər toplanılır.

**Qanunsuz tikililər dağıdılır –** Vətəndaş qanunsuz tikililərdən şikayət edirdi ki, Təşkilatın müraciətindən sonra həmin tikililərin tikilməsini dayandırılıb və dağıdılma prosesi başlanılır.

**Təhlükəsizlik normalarına riayət olunmasına dair əmr verildi -** Vətəndaş tikinti zamanı təhlükəsizlik normalara riayət olunmamasından şikayətlənirdi. Nəticə etibarı ilə tikindi işlərində qüsurlar aşkarlandı və təhlükəsizlik normalarına riayət olunmasına dair əmr verildi.

### Gəncə mərkəzi üzrə

**Ünvanlı sosial yardım verildi** – Müraciətçi ərizəsində bildirir ki, ünvanlı sosial yardım almaq üçün müraciət etmişdir və şöbənin əməkdaşı vətəndaşın həmin yardımın yüksək məbləğdə alması üçün rüşvət tələb etmişdir. Mərkəzim müdaxiləsindən sonra vətəndaş müvafiq sənədləri təqdim edərək ünvanlı sosial yardım alınmasına nail olmuşdur.

**Əməliyyat təmənnasız keçirilmişdir** – Müraciətçi bildirmişdir ki, həyat yoldaşını həkim müayinə edərkən uşağın təbii yolla doğulmasının mümkün olmadığını və əməliyyatla mümkün olması üçün guya lazımı dərmanların alınması üçün rüşvət tələb etmişdir. Təşkilatın müdaxiləsindən sonra müraciətçinin aldığı dərmanlar geri qaytarılmış və heç bir məbləğ ödənilmədən əməliyyat keçirilmişdir.

**Sürücülük vəsiqəsi verildi** – Müraciətçi ofisə müraciət edərək bildirdi ki, yol qaydalarını pozduğu ucun Yol polisi tərəfindən sürücülük vəsiqəsi alınmış və 60 manat rüşvət tələb olunmuşdur. Mərkəzin müdaxiləsindən sonra müraciətçi qanuni cəriməni ödəyərək, vəsiqəni almağa nail olmuşdur.

**Vəsiqənin verilməsi təmin olunmuşdur** – Müraciətçi bildirir ki, o veteran vəsiqəsinin yeniləşdirilməsi üçün köhnə vəsiqəni komissarlığa təqdim etmişdir. Müraciətçiyə yeni vəsiqənin verilməsi üçün ondan 300 manat tələb olunmuşdur. Mərkəzin müdaxiləsindən sonra müraciətçiyə veteran vəsiqəsi verilmişdir.

---

[2] *Burada yalnız uğurla həll edilmiş işlərin yalnız bəziləri qeyd olunub. Uğurlu işlərin tam siyahısını əldə etmək üçün 418 11 09 və ya 596 20 38 telefon nömrələri ilə "Şəffaflıq Azərbaycan" İB-yi ilə əlaqə saxlaya bilərsiniz.*

## Lənkəran mərkəzi üzrə

**Arayış təqdim olundu** – Vətəndaşın şikayətinə əsasən cəzaçəkmə müəssisəsindən yoldaşının həbsdə olduğunu təsdiq edən arayışı ala bilməməsindən ibarət idi. Daxil olmuş məktuba əsasən arayış vətəndaşa təqdim olundu.

**Vətəndaşın evinə qaz çəkildi** – Vətəndaşın evlərinə qaz çəkilməsi üçün müraciətə baxılmamasından şikayəti daxil olmuşdur. Azəriqazdan daxil olmuş cavaba əsasən vətəndaşın evinə qaz çəkilişi başa çatdı.

**Müraciəti müsbət həll olundu** – Vətəndaş xəstəliklə bağlı pensiyaya çıxa bilməməsindən şikayətlənirdi. DSMF-dən aldığımız rəsmi məktuba əsasən vətəndaşın müraciəti müsbət həll olundu.

**Əmək haqqı ödənildi –** Vətəndaş İşlədiyi Mühafizə Xidmətindən İki aylı əmək haqqını dolayı yolla gecikdirib onu süründürməçiliyindən şikayət vermişdir. Nəticə etibarı ilə vətəndaşın əmək haqqısı ödənildi.

**Məsələ müsbət həll olundu** – Vətəndaşın oğlunun sıradankənar vəzifəyə təyin olunması ilə bağlı müraciətlərə baxılmamasından N Saylı Hərbi Hissədən şikayətlənirdi. Daxil olan məktubun cavabına əsasən məsələ ilə bağlı müsbət qərar qəbul olunub.

## Quba mərkəzi üzrə

**Doğum haqqında şəhadətnamə verildi –** Yeni doğulan uşaq üçün doğum haqqında şəhadətnamənin verilməsi üçün VVAQ Quba şöbəsinin pul tələbinə dair şikayət daxil olmuşdur. Mərkəzin müraciətin nəticəsi olaraq, vətəndaşa şəxsən müraciət edilərək, VVAQ şöbəsinə çağırıldığını və təmənnasız olaraq sənədin verildiyi bildirib.

**Sənədlər təqdim edildi –** Vətəndaşın şikayətinə əsasən, Quba şəhər Bələdiyyəsi Torpağa alqı-satqı müqaviləsinin və planın verilməsi üçün rüşvət istəmişdir. Mərkəzin müdaxiləsindən sonra vətəndaşa sənədlərin təqdim edildiyi bildirilir.

**Vətəndaşa rəsmi cavab verildi** – Vətəndaş Qusar Rayon Prokurorluğun şikayətinə baxılmaması və cavablandırılmamasından şikayət edirdi. Təşkilatın müraciətindən sonra daxil olmuş məktubda vətəndaşa rəsmi cavab verildiyi bildirilib.

**Sənəd təsdiqləndi** – Quba Dövlət Notariusundan artıq ödəmə tələbinə dair şikayət daxil olmuşdur. Təşkilatın göndərdiyi məktuba cavab olaraq, sənədin təsdiqlənməsi üçün rüsumu ödənildiyi halda notariat hərəkəti ediləcəyi bildirilir. Müraciətçi şəxsən ofisə gələrək sənədi aldığını bildirib.

**Məlumat əldə olundu** – Qusar rayon vətəndaşın şikayəti təqaüdün düzgün hesablanmaması və bu barədə Qusar rayon DSMF-dan məlumat əldə edə bilməməsindən ibarət idi. Daxil

olmuş məktubda Qanunvericiliyə istinad edilərək pensiyanın dərəcələri göstərilib və vətəndaşın hüquqları anlaşılan şəkildə izah olunub.

**Sənəd dəyişdirilib** – Vətəndaşın narazılığı Xaçmaz r-n 2-saylı RQİB tərəfindən sürücülük vəsiqəsinin deyişdirilməsi üçün ödəmə tələbindən ibarət idi. Nəticə etibarı ilə vətəndaş şəxsən müraciət edərək sənədin dəyişdirildiyini bildirib.

**Məsələ həll olundu** – Vətəndaş Azərenerji tərəfindən qanunsuz ödəmə tələbindən şikayət edirdi. Təşkilatın müraciətindən sonra vətəndaş şəxsən müraciət edərək məsələnin həll olunduğunu bildirib.

## Şəki mərkəzi üzrə

**Fərqlənmə nişanı verildi** – Avtomobil nəqliyyatı vasitəsi ilə yük daşımalarını həyata keçirən sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaş fərqlənmə nişanının verilmədiyinə şikayət edirdi. Təşkilatın müraciətindən sonra məsələ həllini tapdı.

**Su xəttin çəkilməsi nəzərdə tutulub** – Vətəndaşın yaşayış ərazisinin su ilə təmin edilməməsinə dair "Şəki Su-Kanal" törəmə açıq səhmdar cəmiyyətinə qarşı şikayətlə müraciət etmişdir. Daxil olmuş məktuba əsasən ilin axırına həmin əraziyə su xəttinin çəkilməsi həyata keçiriləcəkdir.

*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency International" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihənin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etməkdir". Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD), ATƏT-in Bakı ofisinin və Böyük Britaniya Xarici İşlər Nazirliyinin "Qlobal İmkanlar Fondu"nun maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz. "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi və onun həyata keçirdiyi layihə ilə bağlı əlavə məlumat almaq üçün təşkilatın icraçı direktoru xanım Rəna Səfərəliyevadan müsahibə götürə bilərsiniz.*